

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 104 (23.516)

*3 iyul 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

*Rəsmi xronika*

İyulun 2-də Əfqanıstan Prezidentinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun videokonfrans vasitəsilə görüşü keçirilib.

Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycan və Türkmənistan prezidentlərini salamlayıb, üçtərəfli görüşün keçirilməsinə razılıq verdiklərinə görə təşəkkür edib.

Dövlətimizin başçısı görüşdə çıxış edərək Əfqanıstan və Türkmənistan prezidentlərini salamlayıb və üçtərəfli görüşdə iştirak etməkdən məmnunluq hisslərini ifadə edib. Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə üçtərəfli görüşün keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsə görə təşəkkürünü bildirərək vurğulayıb ki, bu görüş əməkdaşlığımızın hazırkı vəziyyətinin və gələcək inkişafının müzakirəsi baxımından faydalıdır.

Prezident İlham Əliyev Azərbaycanı Əfqanıstan və Türkmənistan ilə sıx dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini, dövlət başçıları səviyyəsində həyata keçirilmiş çoxsaylı qarşılıqlı səfərlər, beynəlxalq tədbirlər çərçivəsindəki görüşlərin bu əlaqələrin inkişafına mühüm töhfələr verdiyini bildirib.



## Şərur rayonu davamlı və kompleks inkişaf mərhələsindədir

Ulu öndərin yolunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün hər bir yaşayış məntəqəsində genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayon mərkəzləri müasir görkəm alır. İnkişafa qovuşan bölgələrdən biri də Şərur rayonudur. Qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası rayonda davamlı sosial-iqtisadi inkişafı təmin etmiş, Şərur şəhərində və kəndlərdə genişmiqyaslı quruculuq işləri aparılmış, yeni inzibati binalar və sosial obyektlər tikilmiş, rahat yollar çəkilmiş, əhalinin rifahı yaxşılaşmışdır.

İyulun 2-də Şərur şəhərində Təqaüdçülər Klubu və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının binası istifadəyə verilmiş, yeni yaradılmış innovativ dərnəklərin təqdimatı olmuşdur.

## Şərur şəhərində Təqaüdçülər Klubu fəaliyyətə başlayıb





İyulun 2-də Şərur şəhərində Təqaüdçülər Klubu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Bu gün Şərur rayonunda 117 mindən artıq əhali yaşayır ki, onun da 10 min 800-ə yaxını, yəni 9,2 faizi əmək pensiyaçılarıdır. Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının 522, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının Şərur Rayon Təşkilatının isə 131 üzvü vardır.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Veteranlar, ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər"*** fikrini xatırladaraq demişdir: Ulu öndərin tövsiyələri əsas götürülərək bu gün Şərur şəhərində rayon veteranları və ağsaqqalları üçün yeni bina – Təqaüdçülər Klubu istifadəyə verilir. Şərur Rayon İcra Hakimiyyəti Təqaüdçülər Klubunda gənclərlə veteranların və ağsaqqalların görüşlərini təşkil etməli, milli-mənəvi dəyərlərimiz gənc nəslə aşılanmalıdır. Qızıl fondumuz olan veteranların həyat yolu gənclərə öyrədilməli, müxtəlif tədbirlər keçirilməlidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.





Şərur şəhər sakini, ağsaqqal Elburus Ələkbərov təqaüdçülər adından minnətdarlıq edərək demişdir: "Şərur rayonunda həyata keçirilən bütün tədbirlər sakinləri həm sevindirir, həm də qürurlandırır. Çünki görülən bu əsrə bərabər işlər insanların rahat yaşamasına, gözəl şəraitdə işləməsinə və mənalı istirahətinə xidmət edir. Şərur şəhərinin mərkəzində xüsusi gözəlliyi ilə seçilən müasir, möhtəşəm bina təqaüdçülərin istifadəsinə verilir. Təqaüdçülərə, yaşlı nəslə göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığımızı bildiririk".

Müharibə, Əmək, Silahlı Qüvvələr və

*Ardı 2-ci səhifədə*

Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının sədri Vidadi Süleymanov rayon ictimaiyyəti və veteranları adından minnətdarlıq edərək demişdir: “Bu gün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası muxtar respublikada, eləcə də rayonumuzda uğurla həyata keçirilir. İnkişaf, quruculuq tədbirləri Şərur rayonunu da ağuşuna almışdır. Şərur rayonu özünün intibah dövrünü yaşayır. Rayon mərkəzində, eləcə də kəndlərdə geniş quruculuq, abadlıq işləri aparılır. Veteranlara, təqaüdçülərə həmişə diqqət və qayğı ilə yanaşılır”.

Məlumat verilmişdir ki, ikimərtəbəli binada təqaüdçülərin asudə vaxtlarının səmərəli təşkili, stolüstü oyunların və yarışların keçirilməsi, qəzet və jurnalların oxunması, kitab mütaliəsinin təmin olunması, gənclərlə görüşlərin təşkili sahəsində lazımi imkanlar vardır. Binanın birinci mərtəbəsində iş otaqları, kitabxana, bufet və oyun zalı, ikinci mərtəbədə isə 2 dama və 2 şahmat zalı yerləşir. Şərur Şəhər Təqaüdçülər Klubunun kitabxanasında 499 kitab vardır. Klubda 2 nəfər işlə təmin olunmuşdur.

Bina istilik sistemi ilə təchiz edilmiş, həyətdə abadlıq işləri aparılmış, musiqili fəvvarə quraşdırılmışdır.

Ali Məclisin Sədri musiqili fəvvarəni işə salmışdır.

## “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni binasının açılışı olub





İyulun 2-də “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Azər Məmmədov çıxış edərək demişdir ki, muxtar respublika iqtisadiyyatı və onun tərkib hissəsi olan bank sektoru günü-gündən inkişaf edir. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni inzibati binasının istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Şərur filialının kredit portfeli 10 milyon 430 min manatdır. Kreditlərin fəaliyyət sahəsi üzrə bölgüsündə kənd təsərrüfatı üzrə 4 milyon 54 min manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə 1 milyon 598 min manat, ipoteka kreditləri 235 min manat və digər sahələr üzrə verilmiş kreditlərdir. Azər Məmmədov göstərilən yüksək diqqət və qayğıya görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, bundan sonra da əhaliyə keyfiyyətli bank xidmətləri göstərəcəklərinə söz vermişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni binasının istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki bank hər bir bölgənin inkişaf göstəricisidir. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti 2008-ci ildən, Şərur rayon filialı isə 2014-cü ildən fəaliyyət göstərir. Filial hüquqi və fiziki şəxslər, eləcə də fərdi sahibkarlar daxil olmaqla, 6 mindən artıq aktiv bank hesabına malikdir. Eyni zamanda filial 5 bankomat, 8 ödəniş terminalı və 80-ə yaxın POS-terminal vasitəsilə əhaliyə xidmət göstərir. Ötən dövrdə verilən kredit portfelinin həcmi və mövcud infrastruktur “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin formalaşdığını və inkişaf etdiyini göstərir.

Ali Məclisin Sədri bu münasibətlə kollektivə təşəkkür edərək demişdir: Əhalinin etibarını qazanmaq hər bir bankın əsas fəaliyyət istiqaməti olmalıdır. Bu gün dünyada və ölkəmizdə baş verən proseslər bir daha təsdiq edir ki, hansı ölkədə bank sistemi şəffaf qurulubsa, onlar da fəaliyyətlərini davam etdirə bilirlər. Şəffaflığı təmin etməyən, yüksək faiz dərəcələri tətbiq edən bankların fəaliyyəti isə dayandırılmışdır. Ötən dövrdə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti Azərbaycanda şəffaf fəaliyyəti ilə seçilmiş, əhali məmnunluğunun qazanılması sahəsində daim ön sıralarda olmuşdur. Əhaliyə ehtiyacı olan sahələrdə aşağı faiz dərəcələri ilə kreditlərin verilməsi, güzəştlərin tətbiqi bankın hörmət və nüfuzunu artırmışdır. Bankın kollektivi gələcəkdə də fəaliyyətini bu istiqamətdə qurmalı, yaradılan şəraitə uyğun olaraq əhaliyə keyfiyyətli xidmət göstərilməli, rayonda təsərrüfatların inkişafına və əhali rifahının yaxşılaşdırılmasına dəstək verilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin yerinə yetiriləcəyinə əminliyini bildirmiş, kollektivə fəaliyyətində uğurlar arzulamışdır.

Sonra binaya baxış olmuşdur. Bildirilmişdir ki, 2 mərtəbəli binanın birinci mərtəbəsində müştəri zalı, təhlükəsizlik, əməliyyat, kassa, qiymətlilərin saxlanma və server otaqları yerləşir. İkinci mərtəbədə isə müdir, kredit, arxiv və mütəxəssis otaqları, iclas zalı və mətbəx vardır. Filialda biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcəkdir.

Bina istiliklə təchiz olunmuş, həyət abadlaşdırılmış, işıqlandırma və suvarma sistemləri çəkilmişdir.

## Şərur rayonunda yeni innovativ dərnəklər yaradılıb



Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin təşkili həyata keçirilən təhsil islahatlarının əsas istiqamətlərindəndir.

İyulun 2-də Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turizm-Diyarşünaslıq mərkəzlərində, eləcə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə yaradılmış innovativ dərnəklərin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dərnəklərin fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, hazırda Şərur rayonunda 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ali Məclis Sədrinin tapşırığına əsasən Şərur rayonunun Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turizm-Diyarşünaslıq mərkəzləri üçün Şərur Texniki Peşə və Sürücülük Məktəbində zəruri şərait yaradılmış, 210 yerlik 15 sinif otağı, mərkəzlərin işçiləri üçün isə 2 otaq ayrılmışdır. Hazırda mərkəzlərdə 48 dərnək fəaliyyət göstərir.

Bu il Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəqs, rəsm, xalçaçılıq, bijuteriya, ebru sənəti, toxuculuq, ingilis dili, Texniki Yaradıcılıq Mərkəzində robotexnika, mental-aritmetik, ağac üzərində oyma, ağac üzərində yandırma, bədii tikmə, qum sənəti, metal üzərində bədii döymə, Turizm-Diyarşünaslıq Mərkəzində isə heykəltəraşlıq və dulusçuluq olmaqla, ümumilikdə, 16 innovativ dərnək yaradılmışdır. Dərnəklər üçün 4 elektron lövhə, 14 kompüter quraşdırılmış, 10 robot dəsti, 5 hana və toxuma alətləri, ebru vannaları, boya və xüsusi kağızlar, mis lövhələr, 10 elektriklə yandırma aləti, elektrikli dəzgah, 7 elektrikli qum stolu, 20 dəst rəqs geyimi, 15 molbert, 12 heykəltəraşlıq və dulusçuluq dəzgahı, eləcə də lazım olan digər ləvazimatlar, xammal və mebellər alınmışdır.

Robotexnika dərnəyində şagirdlərin dəqiqlik, analitik düşünmə, problem həlletmə, qərar vermə, komanda ilə işləmək bacarıqları formalaşacaq, həmçinin təhsil müəssisələrində əldə etdikləri bilikləri real tətbiqetmə imkanı qazanacaqlar. Mental-aritmetik dərnəyi isə



şagirdlərdə riyazi təfəkkürün inkişafını, yaddaşın və qavramanın, həmçinin özünəinam və yaradıcılıq qabiliyyətinin gücləndirilməsini formalaşdıracaqdır.

Yeni dərnəklər yaradılarkən uşaqların yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması da

*Ardı 3-cü səhifədə*





nəzərə alınmışdır. Rəsm, qum və ebru sənəti, dulusçuluq, heykəltəraşlıq, bədii tikmə, metal üzərində döymə, bijuteriya, ağac üzərində yandırma, ağac üzərində oyma, toxuculuq və xalçaçılıq dərnəkləri xalq yaradıcılığımızın və dekorativ-tətbiqi sənət nümunələrimizin sirlərini gənc nəslə öyrətmək və bunları yaşatmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Yeni innovativ dərnəklərin yaradılması müasir dövrün tələbidir. Muxtar respublikada bu işə Naxçıvan şəhərində başlanılmış, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni innovativ dərnəklər yaradılmış və yaxşı nəticələr qazanılmışdır. Belə ki, həmin dərnəklərə cəlb olunmuş uşaqların əl işlərindən ibarət "İstedadlı şagirdlər" albom-kataloqu nəşr olunmuşdur. Şərur rayonundakı məktəbdənkənar təhsil müəssisələrində 48 dərnək fəaliyyət göstərir ki, bunların da 16-sı yeni yaradılan innovativ dərnəklərdir. Hazırda Culfa rayonunun məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti və orada yeni innovativ dərnəklərin yaradılması istiqamətində işlər görülür. Ordubad rayonunda da bu sahədə tədbirlər başa çatmaq üzrədir.

Ali Məclisin Sədri demişdir: Bu gün Şərur rayonunun məktəbdənkənar təhsil müəssisələrində 1350-yə yaxın dərnək üzvü vardır. Yeni innovativ dərnəklərin fəaliyyətə başlaması dərnək üzvlərinin sayını daha da artıracaqdır. Şagird və gənclərin dərnəklərə cəlb olunması həm onların asudə vaxtlarının səmərəli təşkilinə, həm də istedadlarının üzə çıxarılması və milli dəyərlərimizi öyrənmələrinə xidmət edəcəkdir. Bütün bunlar isə sağlam gəncliyin inkişafında əsas məsələdir. Şagirdlər məktəbdə təhsil almaqla peşə öyrənirlərsə, dərnəklərdə də öz qabiliyyətlərini inkişaf etdirərək ikinci bir sənətə sahib olurlar.

Ali Məclisin Sədri muxtar respublikada innovativ dərnəklərin yaradılmasının və fəaliyyətin təmin olunmasının əhəmiyyətini vurğulamış, bu işdə əməyi olanlara təşəkkür etmişdir.

Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Vaqif Cabbarov demişdir ki, muxtar respublikada şagirdlərin təhsili yüksək səviyyədə təşkil olunmaqla bərabər, asudə vaxtlarının səmərəli keçirilməsi üçün də bütün şərait yaradılmışdır. Bu gün rayonumuzda ilk dəfə yaradılan innovativ dərnəklərin təqdimatı olur. Göstərilən qayğıya görə minnətdarlığımızı bildiririk.

Sonra Ali Məclisin Sədri Fizika-Riyaziyyat Təmayüllü Liseydə yaradılan dərnəklərin fəaliyyəti ilə maraqlanmışdır.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə robotexnika və mental-aritmetik dərnəyi yaradılmış, 3 otaq ayrılmışdır. Robotexnika dərnəyi üçün 1 kompüter dəsti, 10 notbuk, 1 printer, 10 robot dəsti alınmış, tədris və emalatxana üçün mebel dəsti və 1 elektron lövhə quraşdırılmışdır. Mental-aritmetik dərnəyi üçün isə 1 elektron lövhə və mebel avadanlığı quraşdırılmış, hesablama alətləri alınmışdır.

Məktəbdənkənar təhsil müəssisələrində və Fizika-Riyaziyyat Təmayüllü Liseydə innovativ dərnəklər üçün ayrılmış sinif otaqlarında təmir işləri aparılmış, kompüter və elektron lövhələr internetə qoşulmuşdur. Bildirilmişdir ki, innovativ dərnəklər sağlamlıq imkanları məhdud uşaq və gənclərin də asudə vaxtlarının səmərəli təşkilinə geniş imkanlar açır.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin müəllimi Murad Heydərov demişdir: "Müəllimlər Ali Məclis Sədrinin diqqət və qayğısını daim üzərlərində hiss edirlər. Mən özüm də "Tərəqqi" medalı ilə təltif olunmuşam. Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması və tədrisin yüksək səviyyədə təşkili bunun əyani nümunəsidir. Liseyimiz son 3 ildə yüz faizlik nəticə ilə qəbul vermişdir. Pandemiya dövrünə baxmayaraq Ali Məclis Sədrinin tapşırığı ilə muxtar respublikanın bütün təhsil müəssisələri onlayn şəkildə dərslərə qoşulur. Fizika-Riyaziyyat Təmayüllü Lisey də bunun öhdəsindən lazımınca gəlmişdir. Bu gün göstərilən qayğının nəticəsidir ki, liseydə innovativ dərnəklər yaradılmışdır. Bu dərnəklər şagirdlərin intellekt səviyyəsinin yüksəldilməsinə, onların bilik və bacarıqlarının, həmçinin yaradıcılıq qabiliyyətlərinin artırılmasına öz töhfəsini verəcəkdir. Yaradılan şəraitə görə liseyin kollektivi adından minnətdarlıq edirik".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti qarşısına mühüm vəzifələr qoyulub



*Bazar iqtisadi münasibətlərinin mühüm tərkib hissəsi olan etibarlı sığorta sisteminin yaradılması ölkəmizdə həyata keçirilən iqtisadi sosial siyasətin əsas məqsədlərindən biridir. Bu mənada, dünyada geniş yayılmış sığorta növlərinin tətbiq olunması və sığorta maarifləndirməsinin genişləndirilməsi məqsədilə aparılan işlər Naxçıvan Muxtar Respublikasında diqqət mərkəzində saxlanılmaqdadır.*

"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti də yaradıldığı ilk gündən etibarən muxtar respublikanın sığorta bazarında aktiv rol oynamaqla qarşısına mühüm vəzifələr qoyub. 2014-cü ilin aprel ayından fəaliyyətə başlamış "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti muxtar respublikanın işgüzar həyatında mühüm mövqe tutur. Maliyyə bazarlarına nəzarət orqanının müvafiq lisenziyası əsasında sığorta fəaliyyətini uğurla həyata keçirən şirkət hazırda 5 könüllü sığorta növü üzrə xidmət göstərir.

Əmlakın yanğından və digər əlavə risklərdən sığortası, fərdi qəza sığortası, yüklərin sığortası, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin könüllü sığortası, hüquqi şəxslərə təqdim edilən avtonəqliyyat vasitələrinin kasko sığortası kimi vacib istiqamətlərdə fiziki və hüquqi şəxslərin qarşılaşdığı riskli hallara görə maddi zəmanət verir. Müasir sığorta bazarında mühüm tələbat görən bu xidmətlər muxtar respublikamızın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi kimi geniş istehlakçı kütləsinə malikdir. Cəmiyyətimizdə işgüzar fəallığın artması, tikinti-quruculuq işlərinin genişlənməsi, fərdi avtomobillərin sayının çoxalması və insanların səyahət mobilliyinin sürətlənməsi, öz növbəsində, gözlənilməz riskli hadisələrin də yaranmasına gətirib çıxarır ki, bunların vurduğu maddi zərərlərə görə sığorta təminatının verilməsi günün vacib tələblərindəndir. Bütün bunlar isə qarşıya qoyulmuş vəzifələr olaraq "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublikamızda vətəndaşlara ən yüksəkkeyfiyyətli sığorta xidmətləri kimi göstərilməkdədir.

Müasir tələblərə cavab verən sığorta şirkəti üçün maddi-texniki baza modern xidmət infrastrukturu vacib şərtlərdən biridir. Bu mənada, "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti üçün yaradılmış şərait onun normal fəaliyyətinə imkan verən mühüm amillərdəndir. Belə ki, fəaliyyəti dövründə şirkətin maddi-texniki bazası gücləndirilmiş və mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq proqram təminatı alınaraq qurulub istifadəyə verilib. Cari ilin may ayında Naxçıvan şəhərinin mərkəzi prospektində şirkət üçün istifadəyə verilmiş yeni ofis binası isə vətəndaşlara daha rahat sığorta xidmətləri göstərilməsi baxımından ən gözəl hədiyyə olub.

Heydər Əliyev prospekti 4 ünvanında yerləşən, ən müasir üslubda dizayn edilmiş, həmçinin yeni kompüter, server və digər avadanlıqlarla təchiz edilmiş bu binada vətəndaşların sığorta müqavilələri bağlaması, məsləhətlər alması və digər məsələləri həll etməsi üçün hər cür komfort və erqonomik şərait yaradılıb. Bütün bunlar isə, sözsüz ki, son nəticədə, müştəri məmnuniyyəti kimi şirkət reputasiyasının yüksəlməsinə təsir edən amillərdəndir.

"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinin qısa müddətdə uğur qazanmasının digər bir mühüm amili isə işə peşəkar yanaşmanı təmin edən gənc, dinamik kadr resurslarıdır. İnsan resursları formalaşdırılması və seçiminə ciddi diqqət edən şirkət müasir sığorta mütəxəssisi timsalında insanlarla gülərüz davranan, problemləri təhlil edib, fərdi yanaşma qabiliyyətinə malik olan işçilərə ilk olaraq yer ayırır. Buna görə də hazırda "Naxçıvansığorta"da çalışan işçilərin sırasına daha çox istedadlı iqtisadçı və müasir informasiya-kommunikasiya texnologiyalarından baş çıxaran bacarıqlı gənclərin qoşulması onun kadr potensialını daha da gücləndirərək öz əhatə dairəsini gələcəkdə daha çox genişləndirəcək. Bütün bu amillər "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinin gələcək üçün əsas hədəf kimi seçdiyi sığorta xidmətlərində müştərilərin etimadını qazanmaq, tərəfdaşlarının sayını artırmaq və nəticədə, sığorta bazarında ən nüfuzlu sığorta şirkəti kimi tanınması yolunda öz təsirini göstərəcək.

**✍ Əli CABBAROV**

*Əlahiddə Ümumqoşun Ordunun reaktiv raket-artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimi keçirilib.*

## Döyüş atışlı taktiki təlim

Plana əsasən yaylım atəşli reaktiv sistemlər "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılıb.

Şərti düşmənin fəaliyyətinin yerüstü kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları ilə izlənildiyi təlimdə yaylım atəşli reaktiv sistemlərdən planlı və plandankənar hədəflərə qurğu, batareya və divizionlar tərkibində atışlar icra edilib.

Təlimin ssenarisinə uyğun olaraq ehtiyat mövqelərə yerdəyişmə edən bölmələr yeni aşkar olunmuş hədəfləri məhv ediblər.



Düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası mövzusunda keçirilən təlimdə tapşırıqlar uğurla yerinə yetirilib.

**Nəriman NƏCƏFOV**

## Rabitə xidmətinin keyfiyyəti yüksəldilir

Culfa Rayon Rabitə İdarəsindən aldığımız məlumata görə, cari ilin 5 ayı ərzində 141 yeni telefon xətti çəkilib, 489 ünvan genişzolaqlı internet xidməti ilə təmin olunub. Bundan başqa, ayrı-ayrı küçələrdən keçən xətlərdə yaranan nasazlıqlar aradan qaldırılıb.

Məlumatda o da qeyd olunur ki, Culfa şəhərinin Məmməd Əsgərov küçəsindəki 2736 və 42 saylı 3 mərtəbəli binalarda aparılan əsaslı təmirlə əlaqədar xətt təsərrüfatı yenilənib. Hazırda rayonun Camaldın kəndində inşa olunan sosial obyektlərin xətt təsərrüfatının müasir tələblər səviyyəsində qurulması üçün işlər həyata keçirilir.

Qeyd edək ki, 1 iyun 2020-ci il tarixə olan məlumata görə, Culfa şəhərində biri inzibati binada olmaqla, 3 ATS istismar olunur, rayon üzrə isə, ümumilikdə, 28 avtomat telefon stansiyası fəaliyyət göstərir. Telefon abunəçilərinin sayı 6938, internet xidmətlərindən istifadə edənlər isə 3960 nəfərdir.

**Xəbərlər şöbəsi**

## Torpaq sahələrinin plana alınması başa çatdırılıb

Muxtar respublikada torpaqların elektron kadastr uçotunun aparılması istiqamətində işlər davam etdirilir. Qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən Sədərək rayonunda aparılan planaalma işləri yekunlaşdırılıb. Bununla da muxtar respublikanın bütün yaşayış məntəqələri üzrə torpaq sahələrinin konturlarının çöl geodeziya-ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi başa çatdırılıb.

Muxtar respublika üzrə plana alınmış bütün daşınmaz əmlak obyektlərinin elektron kadastr məlumatları xidmətin informasiya bazasına daxil edilib, topoqrafik elementlərin, mühəndis-kommunikasiya xətləri və qurğularının, xüsusi qorunan ərazilərin, hidroqrafiya elementlərinin sərhədləri müəyyənləşdirilib.

Dəqiqləşdirilmiş məlumatlar əsasında torpaqların uçotunun müasir tələblərə uyğun aparılması, bu sahədə işlərin texnoloji cəhətdən modernləşdirilməsi təmin ediləcək, avtomatlaşdırılmış torpaq kadastr informasiya sistemi formalaşdırılacaq.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*İrsi qədər könül dünyası da zəngin, dəyərli olan böyük şairimiz Nizami Gəncəvi deyirdi:*

***Sözün də su kimi lətafəti var,***
***Hər sözü az demək daha xoş olar.***
***İnci tək sözlər seç, az danış, az din,***
***Qoy öz sözlərinlə dünya bəzənsin.***

***Bəli, daşdan süzülə-süzülə damlayan su saflaşaraq şəffaf hala gəldiyi kimi, düşünülüb ifadə edilən, yerində, zamanında lakonik şəkildə deyilən sözün qiyməti də böyükdür. Elə güclü zəkaya əsaslanan söz sənəti hesab olunan jurnalistikada da belədir. Zaman-zaman çox insan əlinə qələm alıb fikir yürütməyə, cəmiyyəti istiqamətləndirməyə çalışsa da bu çətin və məsuliyyətli peşənin yükünü çiyinlərində layiqincə daşımaq hər kəsə nəsib olmayıb...***

*Azərbaycan milli mətbuatı – 145*

# Sözün ziyası ilə...



Düz 145 il bundan öncə isə söz, fikir tariximizin üfüqlərində dünya durduqca qürub etməyəcək bir Günəş parladı. Məhz 1875-ci il iyulun 22-də görkəmli maarifpərvər Həsən bəy Zərdabi milli mətbuat baharının ilk qaranquşu – “Əkinçi” ilə sözün dəyərini, qüdrətini, çəkisini, amalını müəyyən etdi bugünkü və gələcək media nümayəndələri üçün. İki ildən artıq qısa zaman kəsiyində dövrün tanınmış ziyalılarını ətrafına toplayan, cəmi 56 nömrəsi işıq üzü görən mətbu orqan oxucularının şüuruna maarifçilik toxumu səpərək onları gerilikdən, xurafat buxovlarından azad edib elmə, təhsilə yönəltməyi bacardı. İşini maarifçilik fəlsəfəsi, etik, estetik ideyalar üzərində bərqərar edən qəzet: *“Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim Vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Siz danışdığınızı onlar başa düşməyib, əhvalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər! Amma insaf deyil, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları və sərgərdan qoyasınız... Qoy şüaralar sizi həcv etsin, mollalar lənət oxusun, avamşünas daşa bassın, siz millət üçün zəhmət çəkərsiniz və bişək, gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaqlar”*, – deyərək Vətənin, millətin maraqlarını, doğma dilin saflığını hər şeydən üstün tutmağa çağırırdı. Dərc olunan məqalələrin böyüklüyü həm də onda idi ki, sosial-ictimai həyatın aynası kimi cəmiyyətdəki nöqsan və bəlaları sadə, müfəssəl şəkildə öz ana dilimizdə təsvir etməklə kifayətlənməyib, onları aradan qaldırmağın yollarını da göstərirdi...

Sonrakı illərdə “Ziya”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Şərqi-Rus”, “Molla Nəsrəddin”, “Həyat”, “İrşad”, “Açıq söz”, “Füyuzat”, “Zənbur”, “Babayi-əmir” kimi qəzet və jurnallar “Əkinçi” ilə başlayan milli şüurun oyanışı prosesini davam etdirərək onun fikir, əqidə yoluna işıq tuta bilsələr də sovet dönəmində sözün kəsərinin və dəyərinin müəyyən qədər azaldığı təəssüf doğurmaya bilməz. Lakin totalitar rejimin buxovlarının da milli mətbuatın şəfqlərini qaranlığa qərq etmək, ziyalı sözünü dəyərdən salmaq kimi bədnam cəhdləri səmərə vermədi, kommunist ideologiyasının təsiri altında çıxan dövrün qəzet və jurnallarına qismən də olsa, sadə xalqın mövqeyinə xidmət edən, ictimaiyyəti düşündürən materiallar yol tapdı. Ölkəmiz müstəqillik qazandıqdan sonra milli mətbuatımız da 70 illik əsarətdən xilas olaraq toz basmış köhnə siması ilə vidalaşıb, sanki yenidən dünyaya daha açıq, aydın gözlə baxmağa başladı...

***“Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin böyük himayədarlığı ilə kütləvi informasiya vasitələrinə yeni nəfəs, ruh yüksəkliyi gəldi, media nümayəndələri əllərinə götürdükləri qələmin məsuliyyətini dərk etməklə yanaşı, həm də sözün əsl gücünün nələrə qadir olduğunu hiss etdilər. Dahi siyasətçinin 1998-ci il avqustun 6-da imzaladığı Fərmanla ölkəmizdə senzura ləğv edildi, bir vaxtlar qəddi qırılmaq həddinədək əyilən sözün müqəddəratı düzəldi, mətbuat cəmiyyəti maarifləndirmək, düzgün istiqamətə yönləndirmək kimi prinsipləri özündə ehtiva edən müstəqil inkişaf, yüksəliş yoluna qədəm qoydu. 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanununun və bu istiqamətdə digər normativ-hüquqi aktların qəbul edilməsi, eləcə də 2001-ci ildə Azərbaycan jurnalistlərinin I qurultayının keçirilməsi və Mətbuat Şurasının yaradılması da milli mətbuatın dirçəlişində, “Əkinçi”dən miras qalan ənənələrin davam etdirilməsində əsl mayak rolunu oynadı.

Təməli ulu öndər tərəfindən qoyulan kütləvi informasiya vasitələrinin inkişafına dəstək prinsipi bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir, ötən dövr ərzində söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılaraq medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılıb. Müstəqillik illərində Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda gedən sürətli sosial-iqtisadi inkişaf bütün sahələrlə yanaşı, medianı da əhatə edib, Naxçıvanda işinin öhdəsindən layiqincə gələ bilən, günün nəbzini tutan, mövzunun mahiyyətini ortaya çıxarmağı bacaran peşəkar jurnalist kadrlar yetişib. Kütləvi informasiya vasitələrinin inkişafı ilə bağlı görülən mühüm əhəmiyyətə malik işlərin nəticəsidir ki, hazırda “Universitet” televiziyası və “Nuhçıxan” radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, “Şərq qapısı” qəzeti, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, “Naxçıvan xəbərləri” informasiya saytı, “Nuhçıxan” İnformasiya Agentliyi, Televiziya və Radio, Mətbuat şuraları, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri fəaliyyət göstərir, ümumilikdə, kütləvi informasiya vasitələrində çalışanların sayı 400-ə yaxındır.

Bu gün peşəkar və bacarıqlı kadr potensialına, zəngin maddi-texniki bazaya malik Naxçıvan Dövlət Televiziya və Radiosu, “Nuhçıxan” İnformasiya Agentliyi ictimai-siyasi önəm kəsb edən məlumatları operativ şəkildə tamaşaçı və oxucularına çatdırmaqla bir növ muxtar respublikanın gündəlik həyatının güzgüsü rolunu oynayır. 100 yaşının astanasında olan, muxtariyyət illərinə işıq salan aparıcı mətbu orqan sayılan “Şərq qapısı” qəzeti də dövlətimizin hərtərəfli diqqət və qayğısı sayəsində əsl tərəqqi yoluna qədəm qoyub. 2010-cu il iyulun 22-də milli mətbuatımızın yaranmasının 135 illiyi münasibətilə redaksiya üçün yeni inzibati bina istifadəyə verilib, qəzetin rəngli nəşrinə başlanılıb. 2012-ci ildə qəzetin internetə çıxış imkanları təmin edilib, ötən il isə internet saytı dizayn və imkanlar baxımından tam yenilənərək aktuallığını artırıb. Bundan başqa, ötən dövr ərzində redaksiyaya kompüter dəstləri verilib, hər cür iş avadanlıqları ilə təminat diqqətdə saxlanılıb. Bildiyimiz kimi, televiziyada videokadr hansı meyarda önəmlidirsə, qəzet nəşrində də fotojurnalistika o dərəcədə əhəmiyyətlidir. Məhz bu məqsədlə həm “Şərq qapısı”, həm də şəhər, rayon qəzet redaksiyaları yüksək potensial imkanlara malik fotoqrafiya avadanlıqları ilə təmin olunub, bu sahə də günün tələbləri səviyyəsində qurulub. Həmçinin ötən dövr ərzində kütləvi informasiya vasitələrində çalışan əməkdaşların sosial müdafiəsi də gücləndirilib, əməkhaqları dəfələrlə artırılıb. Muxtar respublikamızda gedən böyük inkişaf proseslərini jurnalistlərə fəaliyyətlərini müasir dövrün çağırışlarına uyğun şəkildə qurmaları üçün geniş imkanlar açır, qəzetlərdə oxucu maraqlarına uyğun mövzu rəngarəngliyi diqqəti çəkir. Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanına uyğun olaraq yaradılan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu muxtar respublikada fikir, söz və məlumat azadlığını, plüralizmi inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq kimi ali məqsədlərə xidmət etməkdədir. Ötən il Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı ikitərəfli memorandumun imzalanması naxçıvanlı jurnalistlərin dünyada baş verən prosesləri daha yaxından izləyə bilməsinə geniş şərait yaradaraq Naxçıvan mətbuatının dünya mediasının tərkib hissəsi olaraq daha da inkişaf etməsinə yeni imkanlar açıb.

Həyata keçirilən tədbirlərlə yanaşı, Ali Məclis Sədrinin mətbuat işçiləri ilə keçirdiyi görüşlər, jurnalistlərin problemləri ilə müntəzəm maraqlanması, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı atdığı mütərəqqi addımlar media orqanlarının inkişafı üçün geniş imkanlar açır. Muxtar respublikada kütləvi informasiya vasitələri sahəsində çalışanların dövlət mükafatları və fəxri adlarla təltif olunması jurnalist əməyinə verilən qiymət kimi onları yeni yaradıcılıq nailiyyətlərinə daha da ruhlandırır. Bu istiqamətdə görülən işlərin ən mühümü isə muxtar respublika rəhbərinin verdiyi dəyərli tövsiyə və tapşırıqlar, müəyyənləşdirdiyi fəaliyyət prinsipləridir. Bu məqsədlə ötən il keçirilən növbəti görüş zamanı Ali Məclis Sədrinin media nümayəndələrinə xitabən dediyi ***“Sizinlə qürur duyuram!”*** sözləri isə hər bir kütləvi informasiya vasitəsi əməkdaşında böyük fəxarət hissi yaratmaqla, həm də yaradıcılığına, gələcək perspektiv imkanlarının inkişafına böyük mənada stimul vermiş oldu...

Muxtar respublikanın media əməkdaşları hər il milli mətbuatımızın yaranma gününü böyük maraq və həvəslə gözləyirlər. Çünki bu əlamətdar hadisə muxtar respublikamızda yüksək səviyyədə qeyd olunur, yaradıcılıq müsabiqələri keçirilir, qələm sahiblərinin əməyi qiymətləndirilir. Yaşadığımız 2020-ci ilin də jurnalistlər üçün bu baxımdan olduqca əlamətdar və yaddaqalan olacağı şübhəsizdir. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamı hər bir jurnalistin hədsiz sevincinə səbəb oldu. Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar “Tədbirlər Planı”nın təsdiq edilməsi, silsilə tədbirlərin keçirilməsinin nəzərdə tutulması jurnalist əməyinə verilən önəmin daha bir təzahürüdür...

*Deyirlər, yaşamağa haqq qazanan düşüncə və fikirlər, ancaq yaşanaraq söylənən, əməldə əksini tapan sözlərdir. Bu baxımdan muxtar respublikanın kütləvi informasiya vasitələrində ifadə olunan fikir, deyilən söz bünövrəsi Vətən, xalq, dövlət təəssübkeşliyinə əsaslanan möhkəm fakt və arqumentlərə söykənir. Sözün həqiqi mənasında, əli qələm tutan jurnalistlərin 145 yaşlı sözün ziyasında ifadə etdikləri fikirlərin, dedikləri sözlərin daha da kəsərli, dəyərli və uzunömürlü olması diləyi ilə...*

✍ **Nail ƏSGƏROV**

## AMEA Naxçıvan Bölməsi
## *elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarına vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu***

Qədim və orta əsrlər tarixi şöbəsi. Böyük elmi işçi – 1 yer; kiçik elmi işçi – 1 yer

Antik və orta əsrlər arxeologiyası şöbəsi. Böyük elmi işçi – 1 yer

Etnoqrafiya şöbəsi. Böyük elmi işçi – 1 yer

Arxeoloji xidmət şöbəsi. Elmi işçi – 1 yer

Qafqaz tarixi şöbəsi. Böyük elmi işçi – 1 yer

Xalçaşünaslıq sektoru. Aparıcı elmi işçi - tədqiqat qrupunun rəhbəri – 1 yer.

***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***

Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsi. Elmi işçi – 1 yer

Musiqi və teatr şöbəsi. Böyük elmi işçi – 1 yer

Dilçilik şöbəsi. Aparıcı elmi işçi – 1 yer.

***Bioresurslar İnstitutu***

Bitki sistematikası şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer

Biokimyəvi tədqiqatlar laboratoriyası. Aparıcı elmi işçi – 1 yer; böyük elmi işçi – 1 yer

Zooloji tədqiqatlar şöbəsi. Aparıcı elmi işçi – 1 yer; böyük elmi işçi – 1 yer

İnnovasiya və elmi-istehsalat şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer; elmi işçi – 1 yer; texnoloq – 1 yer.

***Təbii Ehtiyatlar İnstitutu***

Direktor – 1 yer

Mineral xammalın kimyası və texnologiyası laboratoriyası. Böyük elmi işçi – 1 yer

Filiz və qeyri-filiz yataqları laboratoriyası. Böyük elmi işçi – 1 yer; elmi işçi – 1 yer; kiçik elmi işçi – 1 yer

Hidrogeologiya və mineral sular laboratoriyası. Böyük elmi işçi – 1 yer; kiçik elmi işçi – 1 yer

Geoekologiya və seysmologiya laboratoriyası. Böyük elmi işçi – 1 yer; kiçik elmi işçi – 1 yer

İqtisadiyyat şöbəsi. Şöbə müdiri – 1 yer.

Müsabiqədə fəlsəfə doktorları və elmlər doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan edilən dərc edildiyi gündən etibarən 1 ay müddətində elmi katibliyə təqdim edilməlidir.

***Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsinin elmi katibliyi. Telefonlar: (036) 544-09-64; (036) 545-16-80***

## *İtmişdir*

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Əliyev Bəhlul Məmmədtağı oğlunun adına olan 290A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Maxta kənd sakini Həsənov Hüseyn Məmmədəli oğlunun adına verilmiş JN-73 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Maxta kənd sakini Həsənov Emin Hüseyn oğlunun adına verilmiş JN-74 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Yengicə kəndində yaşamış Əsgərov Həbib İbrahim oğlunun adına verilmiş 413B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Danyeri kənd sakini Abbasova Südabə Paşa qızının adına verilmiş JN-184A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Natiq Nadir oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 484